AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

8 AVQUST 2024-cü il | CÜMƏ AXŞAMI | № 167 (7925) | GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET | WWW.RESPUBLIKA-NEWS.AZ



*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*

# QARABAĞ ZƏFƏRİ: milli birlik, sarsılmaz iradə

*"Biz bundan sonra da Azərbaycanda vətəndaş cəmiyyətinin yaradılması ilə bağlı addımlar atacağıq. Azərbaycan xalqının həmrəyliyi əsas uğurlarımızdan biridir. İkinci Qarabağ müharibəsindəki parlaq Qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı böyük xalqdır". Prezident İlham Əliyev bu il fevralın 14-də Milli Məclisdə andiçmə mərasimi zamanı bu fikirləri səsləndirib.*



44 günlük İkinci Qarabağ müharibəsində qazandığımız qələbə Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş, məqsədyönlü siyasətin, ölkəmizin iqtisadi potensialının göstəricisi olmaqla bərabər, həm də xalqımızın birliyini, həmrəyliyini nümayiş etdirdi. Tarixin müxtəlif mərhələlərində işğallar, deportasiyalarla üzləşən, sahib olduğu təbii ehtiyatlara göz dikən istilaçıların zülmünə məruz qalan müdrik xalqımız heç vaxt düşmənə yenilmədi, öz istiqlaliyyəti, azadlığı uğrunda mübarizəsini sonadək davam etdirdi. 30 il Ermənistanın işğalçılıq siyasətinin müsibətlərini yaşayan, doğma ocağından ayrı düşən, respublikamızın müxtəlif bölgələrinə pənah aparan soydaşlarımız çətin, zillət dolu həyat keçirsələr də, bir gün belə öz amallarından dönmədilər. Harada yaşamalarından asılı olmayaraq Odlar yurdunun dilbər guşəsi Qarabağı bir an belə yaddan çıxarmadılar, zorla, silah gücünə çıxdıqları əzəli torpaqlarına dönəcəklərinə inandılar və o günü səbirsizliklə gözlədilər.

İkinci Qarabağ müharibəsi Azərbaycan xalqının mübariz ruha, sarsılmaz iradəyə sahib olduğunu bütün dünyaya nümayiş etdirdi. Öz liderinin ətrafında sıx birləşərək xalq-iqtidar birliyi yaradan xalqımız Vətən müharibəsində dəmir yumruğa çevrilərək bir nöqtəyə vurdu, ərazi bütövlüyünü pozan, torpaqlarını işğal edən düşmənə nəyə qadir olduğunu sübut etdi, göstərdi ki, lazım gələndə bir olub bütövləşmək, yağılara yerini göstərmək iqtidarındadır. Böyükdən kiçiyə, əsgərindən generalına qədər Ali Baş Komandanın əmrini gözləyən oğullarımız Vətən yolunda canından belə keçməyə hazır olduğunu bəyan etdi. Əli silah tutan hər kəs Qarabağın, işğal altında olan ərazilərimizin müdafiəsinə qalxdı.

(davamı 2-ci səhifədə)

(əvvəli 1-ci səhifədə)

Uzun illər Azərbaycanla sərhəddə təxribatlar törədən ermənilər genişmiqyaslı əks-hücum əməliyyatı ilə cəzalandırıldılar. Ali Baş Komandanından "İrəli" əmrini alan qəhrəman ordumuzun bölmələri düşmənə aman vermədi, gücünü, hünərini göstərdi, illər boyu işğal altında qalan Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonlarını, Hadrut, Suqovuşan qəsəbələrini, 300-ə yaxın kəndi, Laçın və Kəlbəcərin bir hissəsini azad etdi. Qədim Şuşanın işğaldan azad olunması isə 44 günlük İkinci Qarabağ müharibəsində qalibiyyətimizi tamamladı. Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, cəsarəti, xalqımızın mübarizliyi, igid oğullarımızın rəşadəti Zəfər tariximizi yazdı. Döyüş əməliyyatlarda yaralanan əsgərlərimiz belə döyüş meydanını tərk etmədi, düşmənə etdiklərinin cəzasını vermək üçün sonadək vuruşdu. Döyüş meydanında elə bir igidlik nümunəsi göstərdi ki, 4 il keçməsinə baxmayaraq, Qarabağ savaşında Azərbaycan ordusunun döyüş taktikası, hərbi manevrləri beynəlxalq ekspertlər tərəfindən hələ də öyrənilir.

Təkcə Ermənistanla hərb meydanında deyil, həm də onun təxribatçı, işğalçı havadarları ilə siyasi arenada da müharibə aparan müstəqil dövlətimiz hər iki cəbhədə şanlı Zəfər qazandı. Ermənistanı öz əlində alət edən Qərb dairələri çirkin məqsədlərinə nail ola bilmədi. Dövlətimizin gücü, qüdrəti, xalqımızın sarsılmaz mübarizə əzmi nəticəsində ərazi bütövlüyümüz təmin olundu. Ali Baş Komandanın qətiyyətli mövqeyi, xalqımızın birliyi, Azərbaycan əsgərinin rəşadəti, şücaəti düşmənin müqavimətini qıraraq 30 illik həsrətimizə son qoydu. Vətənimizin ərazi bütövlüyü uğrunda başlayan və işğalçı dövlətin məğlubiyyəti ilə sona çatan İkinci Qarabağ müharibəsi xalqımızın düşmən üzərində qələbəsi, eyni zamanda pozulmuş hüquqlarının, haqqın, ədalətin bərpası oldu.

Vətənpərvərlik sadəcə orduda xidmət etmək, hərb meydanında düşmənlə üz-üzə vuruşmaq deyil, vətəni sevmək, ona sadiq olmaq, torpağa bağlılıqdır. İkinci Qarabağ müharibəsindəki qalibiyyəti şərtləndirən əsas amil "hər şey cəbhə, hər şey qələbə üçün" missiyasını 44 günün hər anında, dəqiqəsində yerinə yetirmək, bütün diqqəti, qayğını milli orduya yönəltmək, dövlətin siyasətini dəstəkləmək və dövlətçiliyi qorumaq idi ki, xalqımız bu ali missiyanı ləyaqətlə həyata keçirdi, hər bir azərbaycanlının ürəyi Qarabağda döyündü. Birlik, həmrəylik, vətənpərvərlik, qətiyyət, şücaət simvolu olan şanlı qələbəmiz nəticəsində ərazi bütövlüyümüz, suverenliyimiz bərpa olundu. İndi işğaldan azad olunmuş şəhər və kəndlərimizdə qürurla dalğalanan üçrəngli bayrağımız bir vaxtlar torpaq həsrəti çəkən qəlbimizi riqqətə gətirir.



30 illik işğala son qoyaraq Azərbaycanın gücünü, qüdrətini bütün dünyaya nümayiş etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə düşməndən geri alınmış ərazilərdə genişmiqyaslı layihələr reallaşdırılır. Respublikamızın hər bölgəsi inkişaf etdirilir, ölkə başçımızın işğaldan azad olunmuş ərazilərə davamlı səfərləri bu yerlərdən erməni vandalizminin izlərinin silinməsi, tarixi yurd yerlərimizin dirçəldilməsi ilə müşayiət olunur. Bu yerləri qısa müddət ərzində sülh, əməkdaşlıq və təhlükəsizlik bölgəsinə çevirmək, rayonları, kəndləri, qəsəbələri, bütün yaşayış yerlərini tezliklə bərpa etmək, bir sözlə, Qarabağı yenidən qurmaq üçün xalqımız qətiyyətlə müstəqil dövlətimizin və müdrik lider İlham Əliyevin ətrafında sıx birləşib. Bu birlik, həmrəylik isə daha firavan həyata, xoş gələcəyə aparır.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**